

# Həqiqətə doğru yol

Həqiqətə doğru yol həmişə çətin olub. Birinci anlamda məqsəd, məram, yetmək istədiyin arzu və istək mərtəbəsi... həqiqətə doğru yolun son ucudur.

İkinci anlamda vurmaq, dağıtmaq, rəqibi yenmək istəyi və iradəsi ilə son məqsəd...

Sözün çoxmənalı tərəfi təkcə dili hərəkətə gətirmir, həm də düşüncəni hərəkətə gətirir. Hər kəs öz düşüncəsində sözün yerini və məqamını axtarır.

“Həqiqətə doğru yol” deyəndə məqsədimiz həqiqəti vurmaq deyil, həqiqətə çatmaq, həqiqətə yetmək istəyimizi bəyan etməkdir. Ulu Öndər sözünü açıq deməyin, hədəfi göstərməyin ustadı idi.

Tarixin sınaqlı məqamlarında Ulu Öndər çoxları ilə müsahib olub. Ancaq bu çoxların arasında hədəfi həqiqətə yetmək baxımından qavrayan jurnalistlər az olub. Belə jurnalistlərdən biri də Qulu Məhərrəmlidir. Yaradıcılıq manerası, həqiqəti deyə bilmək gücü, nitqi səlis qurmaq bacarığı baxımından özünü doğrulda bilmiş və dəfələrlə Ulu Öndərdən müsahibə almışdır.

Həqiqətə doğru yol... Həqiqəti vurmaq yox, ona yetmək əsas məqsəddir.

Zaman özünütəsdiq imkanıdır. Bu, həqiqətə doğru yoldur.

*Əli Rza XƏLƏFLİ*
*28.10.2019*

Kredo 2019.- 30 oktyabr.- S.1.